Qeyd edək ki, respublika baxış müsabiqəsi 7 bölmə üzrə təşkil edilib. Bizim irs, doğma diyara yürüş, səyahət və ekskursiya bölmələrində iştirak edən uşaq və yeniyetmələr xalqımızın zəngin mədəni irsini dərindən öyrənməyə cəlb olunub, qədim adət-ənənələrimiz və bayramlarımız haqqında əhatəli məlumatlar toplayıblar.

Müsabiqənin mayın 22-də Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzində təşkil olunan final mərhələsində Təhsil Nazirliyinin Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri A. İbrahimov, həmin şöbənin baş məsləhətçisi A. Qarayev, böyük məsləhətçi E. Əlizadə iştirak ediblər. Tədbirə paytaxtın ümumtəhsil məktəbləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Babək, Culfa, Şahbuz rayonlarının, Gəncə, Mingəçevir və Sumqayıt şəhərlərinin tədris ocaqları da qatılıb. Final mərhələsində qalib gəlmiş işlər Təhsil Nazirliyinin diplom və qiymətli hədiyyələri ilə mükafatlandırılıb.